**“İki sahil”.-**2010.-18 iyun.-N.107.-S.11.

## Pakistanda Rusiyadan sonra səfirlik kompleksi olan yeganə ölkə Azərbaycandır

## Eynulla Mədətli: “Pakistan Ermənistanın müstəqilliyini təcavüzkar siyasət yürütdüyünə görə tanımayıb”

Azərbaycanın Pakistanda fövqəladə və səlahiyyətli səfiri Eynulla Mədətlinin APA-ya müsahibəsini təqdim edirik:

**- Azərbaycanın Pakistanda səfirliyinin rəsmi açılış mərasimi keçirildi, səfirlik binasının ölkənin mülkiyyəti olmasının əhəmiyyəti nədən ibarətdir?**

- Azərbaycanın Pakistandakı səfirliyi 1997-ci ildən İslamabadın müxtəlif məhəllələrində icarə şəklində fəaliyyət göstərib. Səfirlik üçün binanın inşa edilməsi çox mühüm bir məsələdir. Ölkəmizin iqtisadi inkişafı yüksəldikcə, imkanlarımız genişləndikcə, xaricdə təmsil olunan diplomatik missiyalarımızın da ölkəmizin adına, beynəlxalq nüfuzuna layiq səfirlik binalarının olması çox vacib şərtdir. Bu o qədər vacibdir ki, bir ölkənin səfirlik kompleksi varsa, öz mülkiyyəti varsa, üstəlik həmin kompleks şəhərin yaxşı bir yerində yerləşirsə, həmin səfirlikdə cürbəcür tədbirlər keçirilə bilirsə, mədəniyyət günləri və digər kütləvi tədbirlər gerçəkləşirsə, bu, həmin dövlətin nüfuzundan xəbər verir və onun mühüm göstəricilərindən biridir. Pakistanda SSRİ-dən qalan səfirlik bu gün Rusiya Federasiyasına məxsusdur, Rusiyadan sonra özünün mülkiyyəti və səfirlik kompleksi olan yeganə ölkə Azərbaycandır. Digər tərəfdən daimi səfirlik binasına malik olmaq həm də bizim həmin ölkəyə münasibətimizin göstəricisidir. Yeni binaya keçən il noyabrın 17-də köçmüşük, orada bayrağımızı qaldırmışıq. Rəsmi açılış isə xarici işlər naziri Elmar Məmmədyarovun iştirakı ilə keçirilib. Nazirin tədbirə qatılması Pakistanın bu tədbirə münasibətini daha da artırdı, açılış mərasiminə bu ölkənin dövlət naziri, Senat sədrinin müavini gəlmişdi. Kompleks səfirliyin üçmərtəbəli inzibati binası, üçmərtəbəli iqamətgah, səfirliyin əməkdaşları üçün dörd mərtəbəli yaşayış binası və qonaq evlərindən ibarətdir.

**- Pakistan Azərbaycanın xarici siyasətində hansı yerə malikdir?**

- Pakistan İslam Respublikası bizim ölkəmiz üçün çox önəmli ölkələrdən biridir. 2002-ci ildə Heydər Əliyev məni Pakistana səfir təyin edəndə ilk sözü bu olmuşdu: “Diqqət et, Pakistan bizim üçün çox önəmlidir”. Çünki 1993-cü ildə erməni işğalı nəticəsində bizim torpaqlarımızın müəyyən hissəsinin işğal olunması ilə əlaqədar BMT Təhlükəsizlik Şurasında müzakirələr zamanı ilk və həlledici olan 822 saylı qətnamənin layihəsinin təşəbbüskarı Pakistan idi. O zaman Pakistan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü idi və həm də BMT-TŞ-yə sədrlik edirdi. Həmin qətnamə layihəsini məhz Pakistan hazırlamışdı. Pakistan digər qətnamələrin qəbulunda da Azərbaycana dəstək olur. Pakistan Azərbaycanı Türkiyədən sonra tanıyan ikinci ölkədir. Daha bir cəhət var, bu da çox xarakterikdir. Pakistan Azərbaycana qarşı təcavüzkar siyasət yürütdüyünə görə Ermənistanın müstəqilliyini tanımayıb və bu ölkə ilə diplomatik əlaqələr qurmayıb. 2004-cü ildə Prezident İlham Əliyev mənə daha konkret tapşırıq verdi - Pakistanla münasibətlər ən yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırılmalı, Pakistandan Azərbaycanın aldığı siyasi dəstək, eləcə də Azərbaycanın Pakistana verdiyi siyasi dəstək, Pakistanın milli maraqlarına aid olan bütün məsələlərdə qarşılıqlı şəkildə davam etdirilməlidir. Bunu etməkdə çox da çətinliyimiz olmadı, çünki Prezidentimiz xarici siyasəti özü müəyyən etməklə yanaşı, onun həyata keçməsində də aparıcı rol oynayır. Pakistanda səfirlik inşa etməyimizin siyasi mənası da var. Bilirsiniz ki, son vaxtlar Pakistanda, Əfqanıstanda, bölgədə təhlükəsizliklə əlaqədar ciddi problemlər yaşanır, həmin bölgələrin xalqlarına qarşı terrorizm, ekstremizm zəminində qanlı hadisələr törədilir, qarşıdurmalar olur. NATO qüvvələri Əfqanıstanda antiterror əməliyyatlarını davam etdirir, belə bir şəraitdə həmin ölkələrdə silahlı qüvvələr tərəfindən sıxışdırılan radikallar, ekstremistlər, terrorçular, “Əl-Qaida” ilə əlaqəsi olan təşkilatlar təbii ki, qisas tədbirləri həyata keçirirlər. Diplomatik missiyalarda partlayışlar, qətllər, insanların girov götürülməsi kimi hallar dəfələrlə baş verib. Ona görə də Pakistan kimi həssas bölgədə ölkənin özünəməxsus səfirlik kompleksinin olması, onun lazımi şəkildə texniki təchizatı, təhlükəsizlik sisteminin qurulması, bütün əməkdaşların yaşaması üçün binanın inşa edilməsi, iş yeri ilə yaşayış yerinin bir birinə yaxınlığı ilk növbədə təhlükəsizlik baxımından çox önəmli bir məsələdir.

**- Pakistanla əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə çatdırılıbmı?**

- Bizim Pakistanla münasibətlərimiz strateji tərəfdaşlıqdan da irəlidədir. Bu münasibətlərimizi Türkiyə ilə münasibətlərimizə bənzədərdim. Strateji tərəfdaşlıqdan o yana insanların bir birinə qarşılıqlı məhəbbəti, sevgisi, yaxınlığı var, mədəniyyət ortaqlığı var, tarixdən gələn ənənələr var. Pakistanın yerləşdiyi ərazi 7-8 yüz il sırf türk əsilli sülalələr tərəfindən idarə olunub. Oranın insanları bilirlər ki, Azərbaycan o qədər də yad ölkə deyil, “baycan” sözü urdu dilində “qardaş can” deməkdir.

**- Siz Azərbaycanı həm də Əfqanıstanda təmsil edirsiniz. Bu ölkə ilə əlaqələrimiz hansı səviyyədədir?**

- Əfqanıstanın tək bizə yox, bütün dost ölkələrin köməyinə ehtiyacı var. Biz ilk gündən imkanlarımız daxilində Əfqanıstanda həm sülh yaratmaq, həm də sülhü qorumaq prosesində iştirak edirik. Dövlətimizin Əfqanıstanla bağlı qəbul etdiyi qeyri-hərbi xarakterli proqramı var. Bu proqram maddə-maddə həyata keçirilir, ötən ay xarici işlər nazirinin müavini Araz Əzimovun rəhbərlik etdiyi nümayəndə heyəti Əfqanıstanda çox məhsuldar

görüşlər keçirib. Biz artıq Əfqanıstanın bütün ehtiyaclarını öyrənmişik və bu ölkə ilə iş o ehtiyaclara uyğun şəkildə davam edir. Qonşu ölkələr nə qədər inkişaf etmiş olsalar, bizim üçün də həm rahat olar, həm problem az olar, həm də qarşılıqlı fayda əsasında əməkdaşlıq olar. Sabitlik olması üçün orada mütləq inkişaf olmalıdır, inkişaf üçün də 30 illik müharibənin vurduğu ağır nəticələr aradan qaldırılmalıdır. Bu xalqın bütün resursları artıq tükənib, əfqan xalqının yalnız köməyə ehtiyacı var, biz də o köməyi əsirgəməyən ölkələrdən biriyik. Həmin kömək yalnız ikitərəfli çərçivədə deyil, beynəlxalq proses çərçivəsində həyata keçirilir.

**- Pakistanla iqtisadi əlaqələrimiz nə yerdədir?**

- İqtisadi əlaqələr təəssüf ki, ürək açan deyil. Bu da obyektiv səbəblərlə əlaqədardır. Son illər ərzində xüsusilə Pakistanda və Əfqanıstanda məlum proseslər nəticəsində müəyyən problemlər yaranıb. Bu mənada bizim iş adamlarının, xüsusilə də özəl sektorun orada iş qurmaq istəyi o qədər də yüksək deyil. Bu, tək bizə aid deyil, bu, bütün dünyanın bölgəyə marağı olan iş adamlarına aiddir. Ölkədə iş həyatı zəifləyib, hökumət investisiyaları cəlb etmək üçün tədbirlər görür. Amma elə sahələr var ki, bizim əməkdaşlığımız çox yaxşı inkişaf edir və gələcək əməkdaşlıq üçün perspektiv var. Buna misal olaraq müdafiə sənayesi sahəsini göstərmək olar. Daxili işlər, xüsusi xidmət orqanları arasında birgə təlim kurslarının keçirilməsi, bu sahədə əməkdaşlıq çox uğurla davam edir. İslamabad Texnologiya Universitetində 3 professorumuz dərs deyir. Bu gün Pakistanda təhsil alan tələbəmiz yoxdur, əksinə Pakistanda Azərbaycanda təhsil almaq üçün böyük maraq yaranıb, bu ölkənin vətəndaşları XİN Diplomatik Akademiyası, Xəzər Universiteti, Bakı Dövlət Universitetində təhsil alırlar.

**- Azərbaycanda pakistanlı mühacirlərin sayı az deyil, səfirlik bu prosesə nəzarət edirmi?**

- Pakistanlı mühacirlərin sayı mənə məlum deyil. Mənə yalnız səfirlikdən viza alaraq Azərbaycana gedən şəxslərin sayı məlumdur, amma üçüncü dövlətlərdən də viza alıb ölkəmizə gedən Pakistan vətəndaşları var. Amma burada bir reallıq var ki, ölkəmiz inkişaf etdikcə, burada yaşamaq rahat və təhlükəsiz olduqca, burada cürbəcür iş imkanları, biznes fəaliyyəti mühiti yaxşılaşdıqca, inkişaf etməkdə olan ölkələrin hər birindən mütləq axın olacaq. Bu normal, təbii prosesdir. Amma digər tərəfdən bu proses nizamlanmalıdır. Dövlət Miqrasiya Xidməti bununla bağlı iş aparır. Ölkəyə daxil olan bütün vətəndaşların vahid şəbəkədə yerləşən sistemi olmalıdır, bu sistemdə daimi müşahidə nəticəsində elə etmək olar ki, miqrasiya qaydalarını heç kim pozmasın. Mənə elə gəlir ki, Azərbaycanda pakistanlı mühacirlərin sayı bir neçə yüz nəfər ola bilər.